# Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasında iştirakı çərçivəsində bir sıra görüşlər keçirib

Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində ATƏT-in baş katibi Helqa Şmit ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, C.Bayramov Azərbaycanın ATƏT ilə əməkdaşlığa əhəmiyyət verdiyini, bu xüsusda cari postmünaqişə dövründə ölkəmiz ilə ATƏT arasında əməkdaşlıq proqramının həyata keçirilməsinin vacib olduğunu vurğulayıb.

Bununla yanaşı, Ermənistanın ATƏT çərçivəsində ənənəvi olaraq bir sıra destruktiv fəaliyyətini qeyd edib.

C.Bayramov ATƏT-in baş katibinə Ermənistanın bölgədə həyata keçirdiyi son genişmiqyaslı təxribatlar və cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində Azərbaycanın irəli sürdüyü təşəbbüslər barədə ətraflı məlumat verib. Nazir Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası, ərazilərin minalardan təmizlənməsi kimi məsələlərə diqqət çəkib. Son hərbi toqquşmalara və itkilərimizə baxmayaraq, Azərbaycanın sülh müqaviləsi üzrə prosesə vaxt itirmədən başlamağın tərəfdarı olduğunu vurğulayıb.

ATƏT-in baş katibi Helqa Şmit öz növbəsində son toqquşmalardan narahatlığını bildirərək, itkilərə görə başsağlığı diləklərini çatdırıb. Baş katib ATƏT-in bölgədə uzunmüddətli təcrübələri nəzərə alınaraq, normallaşma prosesinə dəstək verməyə hazır olduqlarını bildirib.

Tərəflər Azərbaycan-ATƏT əməkdaşlığı məsələləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Avropa Şurasının (AŞ) baş katibi Mariya Peyçinnoviç Buriç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, tərəflər Azərbaycanla Avropa Şurası arasında əməkdaşlıq və onun inkişaf perspektivləri, habelə bölgəmizdə hazırkı durum barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanla AŞ arasında əməkdaşlığın vacib olduğunu, ölkəmizin ehtiyacları əsasında işlənib hazırlanmış və ümumi əməkdaşlıq çərçivəsini təşkil edən 2022-2025-ci illər üzrə fəaliyyət planı üzrə işlərin davam etdiyini bildirib.

Nazir bölgədə münaqişə sonrası vəziyyət və Ermənistanın genişmiqyaslı təxribatları barədə qarşı tərəfi məlumatlandırıb. Azərbaycan tərəfindən atılan addımlar, delimitasiya prosesi, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı ətraflı məlumat təqdim edib. Nazir Azərbaycanın azad olunmuş ərazilərində mina təhlükəsinin doğurduğu ağır fəsadlardan, Ermənistan tərəfindən 2021-ci il istehsalı minaların ərazilərimizdə yerləşdirilməsindən bəhs edib. Ermənistanla sərhədlərin delimitasiyasının və bütün kommunikasiyaların açılmasının, üçtərəfli bəyanatların müddəalarının tam yerinə yetirilməsinin, sülh sazişi imzalanmasının bölgədə sabitlik və tərəqqinin təmin edilməsi üçün vacib olduğu vurğulanıb. Nazir eyni zamanda Ermənistan xarici işlər naziri ilə sentyabrın 19-da görüş barədə məlumat verib.

Baş katib Mariya Peyçinoviç Buriç AŞ baş katibi qismində Azərbaycana səfərini məmnunluqla xatırlayıb. AŞ ilə Azərbaycan arasında fəaliyyət planının tərəflər arasında prioritetləri müəyyənləşdirdiyini və onların icrasının əhəmiyyətini diqqətə çatdırıb. Bölgədə atəşkəsə əməl etməyin, danışıqları bərpa etməyin və normallaşma prosesinin irəlilədilməsinin vacib olduğunu vurğulayıb. Təşkilat tərəfindən etimad quruculuğu tədbirləri həyata keçirilməsinə hazırlıq ifadə olunub.

Görüşdə tərəflər həmçinin beynəlxalq gündəliyin aktual məsələləri, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə müzakirə aparıblar.

❖ ❖ ❖

Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Avstriya Respublikasının Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberq ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə ikitərəfli əməkdaşlıq məsələləri, Azərbaycanla Avstriya arasında münasibətlərin perspektivləri, enerji təhlükəsizliyi, son regional vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verib. İşğal faktorunun aradan qaldırılması ilə iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün imkanların yarandığını qeyd edən nazir Azərbaycanın sülh quruculuğu təşəbbüslərini irəlilətdiyi, bütün bunlara baxmayaraq, Ermənistanın proseslərə maneçilik törətdiyini qeyd edib və genişmiqyaslı təxribatları barədə ətraflı məlumat verib. Ölkəmizin bölgədə sülh və sabitliyin yaradılması istiqamətində səylərə və mövcud problemlərin siyasi müstəvidə həllində maraqlı olduğunu diqqətə çatdırıb.

Avstriyalı nazir bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu, atəşkəsin və danışıqlara qayıtmağın vacib olduğunu bildirib. Avstriya tərəfi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasının zəruri olduğunu, bu xüsusda cari ilin iyulun 18-də Azərbaycanla Avropa İttifaqı arasında imzalanmış anlaşma memorandumunun da əhəmiyyətini qeyd edib.

Tərəflər həmçinin Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri və qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

❖ ❖ ❖

Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Estoniyanın xarici işlər naziri Urmas Reinsalu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, görüş zamanı Azərbaycan-Estoniya ikitərəfli əməkdaşlıq əlaqələri və Ermənistanın təxribatı nəticəsində bölgədə yaranmış gərginlik müzakirə edilib.

Nazir Ceyhun Bayramov estoniyalı həmkarını Ermənistanın davam edən və sülh prosesinə mane olan təxribatçı addımlarının davamı olaraq sentyabrın 12-də Azərbaycanın mövqelərinə hücumları barədə məlumatlandırıb. Əldə edilmiş atəşkəsin Ermənistan tərəfindən pozulduğu və əlavə itkilərin yaşandığını vurğulayıb. Ölkəmizin postmünaqişə dövründə Ermənistan ilə mövcud problemlərin siyasi-diplomatik müstəvidə həllində maraqlı olduğunu qeyd edib.

Estoniyanın xarici işlər naziri Urmas Reinsalu Estoniyanın Azərbaycanla ikitərəfli münasibətlərin daha da inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. Hazırkı qeyri-sabit vəziyyətdən narahatlığını ifadə edən Estoniya xarici işlər naziri tərəfləri təmkinli davranmağa çağırıb, problemlərin dialoq yolu ilə beynəlxalq hüququn norma və prinsipləri əsasında, xüsusilə də suverenlik və ərazi bütövlüyü çərçivəsində həllinin vacib olduğunu vurğulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Uqandanın vitse-prezidenti Cessika Roz Epel Alupo ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı tərəflər beynəlxalq çoxtərəfli platformalarda, xüsusilə də Qoşulmama Hərəkatı çərçivəsində fəaliyyətlər və gələcək planlar barədə ətraflı müzakirə aparıblar.

Nazir Ceyhun Bayramov ölkəmizin sədrliyi çərçivəsində irəli sürülmüş təşəbbüslər, beynəlxalq tədbirlərin təşkili təcrübəsi ilə bağlı fikirlərini bölüşüb. Hərəkat çərçivəsində gənclər şəbəkəsinin, parlament ölçüsünün təsis və inkişaf etdirildiyi vurğulanıb.

Cessika Roz Epel Alupo Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bir çox ölkələr üçün nümunəvi olduğunu bildirib, növbəti mərhələdə hərəkata sədrlik etmək niyyəti olan Uqandanın ölkəmizlə sıx əməkdaşlıq etmək planları barədə məlumat verib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

❖ ❖ ❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Laosun xarici işlər naziri Saleumxay Kommasith və Nikaraquanın xarici işlər naziri Denis Ronaldo Monkada Colindres ilə görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşlər zamanı tərəflər arasında Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq və ikitərəfli münasibətlərin daha da inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Qoşulmama Hərəkatı çərçivəsində sədrliyimiz dövründə ölkəmizin təşəbbüslərinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib və qarşıdan gələn planlar barədə həmkarlarını məlumatlandırıb. Nazir ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin vacib olduğunu bildirib.

Laosun və Nikaraquanın xarici işlər nazirləri həm Qoşulmama Hərəkatı çərçivəsində, həm də ikitərəfli əsasda əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıblar. Ölkələrimiz arasında iqtisadi, təhsil, mədəniyyət və sair istiqamətlərdə əməkdaşlığın artırılması, biznes-forumlarının təşkili, siyasi məsləhətləşmələrin keçirilməsi və parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi niyyətləri diqqətə çatdırılıb.

Daha sonra digər qarşılıqlı maraq doğuran regional məsələlər müzakirə edilib.

*AZƏRTAC*